# AŞ PA Monitorinq Komitəsinin həmməruzəçisi Milli Məclisdə olub



Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennakın başçılıq etdiyi nümayəndə heyəti aprelin 8-də Milli Məclisdə olub.

Milli Məclisin Sədri Oqtay Əsədov AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçisini Azərbaycanda görməkdən məmnunluğunu bildirib. İndiyədək AŞ PA-nın nümayəndə heyətləri ilə keçirilən görüşlərin əhəmiyyətindən söz açan Oqtay Əsədov əlaqələrimizin genişlənməsinin vacibliyini vurğulayıb.

Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttindəki vəziyyət haqqında danışan Milli Məclisin Sədri bildirib ki, Azərbaycanın mülki əhalisi Ermənistan tərəfindən ağır artilleriya atəşinə tutulub. Bunun qarşılığında isə Azərbaycan Ordusu düşmənə layiqli cavab verib. Azərbaycan öz torpağında işğalçının qarşısını alır. Ölkəmiz hər zaman sülhə, atəşkəsə sadiqdir.

Oqtay Əsədov vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vaxtı gəlib çatıb. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar bu məsələnin həlli üçün səylərini daha da artırmalıdırlar. İlk olaraq isə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə əməl edilməli, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmalıdır. Bu münaqişə tezliklə həll olunmalıdır.

Stefan Şennak Azərbaycan üzrə növbəti beş il üçün seçilmiş məruzəçi qismində ölkəmizdə səfərdə olduğunu söyləyib. Həmməruzəçi bildirib ki, AŞ PA Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən hadisələrə görə çox narahatdır. Quruma üzv ölkələrdə mövcud münaqişələrin həlli üzrə fəaliyyət göstərən komitə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini xüsusilə diqqətdə saxlayır.

* * *

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti ilə keçirilən görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, nümayəndə heyətinin rəhbəri Səməd Seyidov ölkəmiz və Avropa Şurası arasında səmərəli əməkdaşlığın olduğunu bildirib.

Qoşunların təmas xəttindəki vəziyyətlə bağlı məsələyə toxunan S.Seyidov atəşkəsin bu şəkildə ermənilər tərəfindən pozulmasının qəbuledilməz olduğunu deyib. O, eyni zamanda, bu hadisənin birbaşa AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçisinin gözü qabağında baş verməsinin bir fakt olduğunu söyləyib. Bildirilib ki, Ermənistan bu təxribatçı addımları məhz Azərbaycanın əldə etdiyi nailiyyətləri qəbul edə bilmədiyindən atır.

Stefan Şennak Azərbaycana hazırkı səfərinin həssas bir məqama təsadüf etdiyini söyləyib. O, cəbhə xəttindəki son hadisələrin narahatlıq doğurduğunu vurğulayıb.

* * *

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri ilə görüşdə komitənin sədri Əli Hüseynli son günlər qoşunların təmas xəttində Ermənistanın törətdiyi təxribatlarla bağlı AŞ PA-nın nümayiş etdirdiyi obyektiv mövqenin parlamentarilər tərəfindən yüksək qiymətləndirildiyini bildirib. O, AŞ PA-nın hər zaman bu münaqişənin həlli ilə bağlı ciddi mövqe göstərdiyini deyib. Ə.Hüseynli hüquq siyasəti və dövlət quruculuğu komitəsinin AŞ PA-nın Bakı ofisi ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb, ölkəmizdə həyata keçirilən islahatlar barədə məlumat verib.

***AZƏRTAC,***
***foto F.BAĞIROVUNDUR***